# Azərbaycanlı alimin məqaləsi Türkiyə elmi jurnalında

**Türkiyədə nəşr olunan nüfuzlu elmi nəşrlərdən biri olan "Avrasiya Dosyası" jurnalı Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Saleh Məmmədovun "Türk Dövlətləri Təşkilatı: Süni intellekt ilə inteqrasiya və inkişaf perspektivləri" adlı elmi məqaləsini dərc edib.**

Məqalədə müəllif müasir dövrdə süni intellekt texnologiyalarının Türk Dövlətləri Təşkilatının inteqrasiyası və dayanıqlı inkişafı baxımından strateji əhəmiyyətini təhlil edir. Bu baxımdan, türk dövlətlərinin ortaq bir ittifaq qurması həm strateji, həm də iqtisadi baxımdan zəruri hesab olunur. Xüsusilə Sovetlər Birliyinin süqutundan sonra türk dünyasının inteqrasiyası məsələsi daha aktual və təxirəsalınmaz hala gəlmişdir.

Məqalədə TDT-yə üzv ölkələr arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, ortaq dil və ideoloji əsasların formalaşdırılması, həmçinin hüquqi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın dərinləşdirilməsində süni intellektin potensial imkanlarına diqqət yetirilir. Hazırda TDT-yə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə üzvdür. Gələcəkdə Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti və Macarıstanın da tamhüquqlu üzv kimi təşkilata qoşulma ehtimalı qiymətləndirilir. Müəlliv vurğulayır ki, süni intellektin yardımı ilə TDT daha güclü və davamlı inteqrasiya modelini formalaşdıra bilər və bu model vasitəsilə təşkilat üzvləri beynəlxalq sistemdə daha təsirli və nüfuzlu aktorlar qismində çıxış edə bilərlər.

"Avrasiya Dosyası" beynəlxalq səviyyəli, elmi keyfiyyətə önəm verən və sosial elmlər sahəsində ixtisaslaşmış akademik nəşrdir. İldə iki dəfə və əlavə olaraq hər il bir xüsusi buraxılış olmaqla nəşr olunur.




Jurnalın məqsədi Türkiyə Cümhuriyyətini və ümumilikdə Avrasiya regionunu maraqlandıran strateji sahələr üzrə aparılan elmi tədqiqatların dərcini təmin etməkdir. Bu çərçivədə sosial elmlərin müxtəlif sahələrində yazılmış, elmi yenilik və orijinallıq daşıyan məqalələr jurnalın nəşr siyasətinə uyğun olaraq qəbul edilir.

*XQ*